Öncə Fəxri xiyabanı ziyarət edən tədbir iştirakçıları daha sonra akademik Zərifə Əliyeva adına məktəblə tanış olublar. «Xatirələrdə yaşayan» adlı tədbirdə təhsil naziri Misir Mərdanov, rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov, Dövlət Pedaqoji Kollecin direktoru, YAP Qadınlar Şurasının sədri Nurlana xanım Əliyeva, millət vəkilləri və digər qonaqlar iştirak ediblər.

Məktəbin direktoru Məhəbbət Vəliyeva tədbiri giriş sözü ilə açaraq son bir ildə tədris ocağında görülən işlər, qazanılan nailiyyətlər və nəzərdə tutulan məsələlər haqqında geniş məlumat verib. O, qeyd edib ki, görkəmli akademikin adını daşıyan məktəbdə təhsil alan şagirdlər Zərifə xanımın həyat və fəaliyyətini dərindən öyrənir, onun haqqında müvafiq araşdırmalar aparırlar.

«Tədris prosesində müasir pedaqoji texnologiyalar: zənginlik və müxtəliflik, məqsədyönlülük və effektivlik» mövzusunda nümunəvi dərslərin internetdə nümayişi maraqla qarşılanıb və məktəbin saytının açılışından sonra şagirdlərin ifasında «Zərifə Əliyeva – ana, qadın və alim» mövzusunda təqdimat keçirilib.

Zərifə xanım Əliyevanın adını daşıyan orta məktəbin fəaliyyətini müsbət qiymətləndirən təhsil naziri Misir Mərdanov bütün sahələrə, o cümlədən də təhsilə göstərilən dövlət qayğısından söz açıb, bu məktəbdə çalışan müəllimlərin və təhsil alan şagirdlərin məsuliyyətinin daha böyük olduğunu vurğulayıb. Nazir bildirib ki, onların qazandıqları uğurlar digər təhsil müəssisələrinə nümunə olmalı, bu təhsil ocağı hər cəhətdən müasir dövrün tələblərinə cavab verməlidir. Misir Mərdanov çıxışında müəllim nüfuzunun artırılmasının vacibliyini və bu işdə valideynlərin fəallığının əhəmiyyətini xüsusi qeyd edib.

Keçirilən nümunəvi dərslərin internet vasitəsilə nümayiş etdirilməsindən məmnun qalan nazir həlli vacib olan digər məsələlərə də diqqət çəkib, müvafiq tövsiyələrini verib. Misir Mərdanov əmin olduğunu bildirib ki, akademik Zərifə Əliyeva adına orta məktəbin yetirmələri bundan sonra daha böyük uğurlara imza atacaqlar.

Sonda tədbir iştirakçıları nümunəvi dərslər keçirilən otaqlara baş çəkib, məktəbin həyətində ümummilli lider Heydər Əliyevin və Zərifə xanım Əliyevanın xatirəsini əbədiləşdirmək məqsədilə 2 çinar ağacı əkiblər.